Danışır qurultay nümayəndəsi

# Yeni dərs ilinə nikbin əhval-ruhiyyə ilə başlamışıq

***Qısa tanıtma: Dursun Hacı oğlu Göyüşov 1957-ci ildə Məlikli kəndində əməksevər ailədə anadan olub. 1969-cu ildə Hacallı kənd orta məktəbini bitirib. 1969-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olmuş, 1975-ci ildə həmin təhsil ocağını bitirərək fizika ixtisası üzrə diplom almışdır. Uzun illərdir ki, pedaqoji sahədə çalışır. Əvvəllər doğma Məlikli kənd tam orta məktəbində müəllim, direktor müavini vəzifələrində çalışmış, 1990-cı ildən məktəb direktoru vəzifəsində işləyir. O, direktor vəzifəsində qazandığı uğurlara və pedaqoji sahədəki böyük təcrübəyə görə cənab Prezident İlham Əliyevin 2012-ci il 1 oktyabr tarixli sərəncamı ilə «Tərəqqi» medalına layiq görülmüşdür. Hazırda Azərbaycan Respublikası müəllimlərinin qarşıdakı 14-cü qurultayına nümayəndə seçilib.***

Rəhbərlik etdiyim təhsil ocağı 1948-ci ildən fəaliyyət göstərir. Tarixi baxımından az vaxt deyil. Ötən dövrə nəzər saldıqda bu kiçik kənd məktəbinin keçdiyi inkişaf yolunu aydın təsəvvür etmək olar. Burada şagird kontingenti ilbəil artır, pedaqoji kollektivin sıraları təcrübəli müəllimlərin hesabına möhkəmlənir. Hər dərs ilinin əvvəlində apardığımız planlaşdırmanın nəticəsində məktəbimizdə şagird kontingentinin sabitliyi təmin olunmuş, təlim-tərbiyənin keyfiyyət göstəriciləri yüksəlmişdir. Məktəbimizdə çalışan müəllimlərin əksəriyyəti ali kateqoriyalıdır. Pedaqoji kollektivimizin təşəbbüsü ilə məktəbimizdə tez-tez açıq dərslər təşkil olunur, istedadlar aşkarlanır və onlara qayğı göstərilir. Hazırkı yeni dərs ilində həmin yönümdə rəngarəng tədbirlərimiz müntəzəm olur və gələcəkdə də davam etdiriləcəkdir. O yerdə ki, tələbkarlıq var, nizam-intizam hökm sürür, orada bilik göstəricisi də yüksəlir, kollektivin işgüzarlığı da.

Məktəb direktoru vəzifəsinə təyin olunandan bəri təlimtərbiyə prosesinin sabit qurulmasına çalışmışam, qiymətli ənənələri qoruyub saxlamaqla tədris ocağının gerilikdən çıxmasına nail olmuşam. Müqayisə üçün deyim ki, ötən dərs ilində məktəbdə oxuyan 118 nəfər şagirdin 70 faizi 4—5 qiymətlərlə sinifdən-sinifə keçib. İndiyədək məktəbimizi bitirən məzunların əksəriyyəti respublikada və ondan kənarda müxtəlif ali məktəblərdə təhsil almış, hətta elmi rütbə qazanmışdır. Kəndimizin fəxri olan, Məlikli məktəbinin məzunu Vidadi Yusifov ABŞ-da biologiya elmi üzrə on professordan biri kimi şöhrət qazanmışdır.



2012—2013-ci tədris ilində məzunlarımızın 8 nəfərindən 2-i ən yüksək, yəni 500—600 arasında bal toplayaraq ali tədris müəssisələrinə tələbəlik vəsiqəsi alıb.

Biz təhsilin keyfiyyətini yüksəltmək üçün ilk növbədə müəllimin aparıcı rolunun artırılmasına səy edirik. Pedaqoji kollektivimizin yekdil fikri, gəldiyi nəticə bundan ibarətdir ki, nailiyyətlərin açarı öz əlimizdədir. Yeni dərs ilinin əvvəlində geniş şura iclası keçirdik. İlk şura yığıncağında ötən dərs ilinin yekunlarını təhlil etdik və qarşıdakı vəzifələri konkret şəkildə müəyyənləşdirdik.

Valideyn-məktəb münasibətlərinə də toxunmaq istəyirəm. 38 illik pedaqoji fəaliyyətimdə məktəb-valideyn münasibətlərinə diqqət yetirməyin faydalı nəticələr verdiyini tam yəqin etmişəm. Pedaqoji kollektivimiz buna görə valideynlərin məktəblə əməkdaşlığına xüsusi önəm verir, valideynlərin tez-tez məktəbə gəlməsini təşkil edir, valideynlər uşaqlarının davranışında, biliyində və tərbiyəsində baş verən hər hansı dəyişikliklərdən xəbər tutur. Gündəlik əməkdaşlıq sayəsində qarşıya çıxan hər hansı problemi valideynlərə çatdırır, gerilik mövcudursa, vaxtında aradan qaldırılır. Həm də valideynlərə izah edilir ki, evdə övladlarının istirahəti, dərsə hazırlığı üçün vaxt rejimi tərtib etsinlər və həm də bu, yaş dövrünə uyğun olsun.

Tarixi və dini bayramları da valideynlərlə birgə keçiririk və sinif iclaslarında irəli sürdüyümüz təkliflər də müsbət nəticə verir. Fəxrlə deyə bilərəm ki, müəllimlərimizin əksəriyyəti bu məktəbin məzunlarıdır. Bu gün onlar kənd camaatı arasında böyük nüfuz sahibidir. Belə müəllimlərdən O. Ağayev, R. Göyüşov, E. Əliyev, M. Şirinova, B. Göyüşova şagirdlərinin sevimlisidir.

Məktəbdə yeni dərs ili ilə əlaqədar bir sıra cari təmir işləri aparılmış, sinif otaqlarında, dəhlizdə və məktəbin həyətində səliqə-sahman yaradılmış, müəllimlər arasındla dərs bölgüsü şəffaf və ədalətli aparılmışdır. Məktəb müəyyən qədər avadanlıqlarla, kompüter dəstləri ilə təzhiz edilmişdir.

Müəllimlərimiz sadaladığım fəaliyyətlərlə heç də arxayınlaşmırlar. Dərs ilinin ilk günündə cənab Prezidentimiz İlham Əliyevin təhsil sistemində çalışanların əmək haqlarının artırılmasına dair imzaladığı sərəncam bizi daha yaxşı işləməyə ruhlandırır. Bir sözlə, sağlam mənəvi-psixoloji iqlim şəraitində fəaliyyət göstərən kollektivimiz sabaha daha inamla baxır.

**Dursun GÖYÜŞOV,**
**Məlikli kənd tam orta məktəbinin direktoru.**

# Xırxatala kənd tam orta məktəbi: İtirilmiş şöhrət bərpa olunur

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində ölkədə xaosla müşayət olunan keçid dövrünün ilk illərinin ağrılı-acılı nəticələri Xırxatala kənd tam orta məktəbindən də yan keçməmişdi. Məktəb binası, xüsusən, onun dam örtüyü uzun müddət təmir edilmədiyindən uçulub tökülmək təhlükəsi yaranmışdı. Qar, yağış pəncərələrdən, çökmüş dam örtüyündən sinif otaqlarına, dəhlizlərə dolur, qızdırılmayan, çoxdan dəyişdirilmədiyindən avadanlıqları yararsız hala düşmüş məktəbdə normal təlim-tərbiyənin təşkilini mümkünsüz etmişdi. Müəllimlərin aldığı cüzi maaşlarını günbəgün yüksələn qiymətlər, sürətlə artan inflyasiya tamamilə dəyərsizləşdirmişdi. Yaranmış vəziyyət təhsilə olan marağı xeyli azaltmışdı. Nəticədə 1980-ci illərin sonundan başlayaraq Xırxatala kənd tam orta məktəbindən nadir hallarda bir və ya iki məzun ali məktəblərə qəbul olunurdu. Halbuki, əvvəllərötən əsrin 70-ci illərində və 80-ci illərin birinci yarısında Xırxatala kənd tam orta məktəbi rayonun ən qabaqcıl məktəbləri sırasında öz yerini tutmuşdu.

Ulu öndər Heydər Əliyev Azərbaycanda birinci dəfə ən yüksək vəzifəyə gəldiyi 1969-cu ildən təhsilə yüksək qayğı göstərilməyə başlandı. Xırxatala kəndindəki səkkizillik məktəb həmin il orta məktəbə çevrildi. 1972-ci ildə məktəbin birinci buraxılışından 9 nəfər, 1973-cü ildəki ikinci buraxılışından isə 10-cu sinifi bitirmiş 19 nəfərdən 13 nəfər ali məktəblərə, 2 nəfər isə orta ixtisas təhsili məktəblərinə qəbul olunmuşdu. 1978-ci ildə o dövr üçün ən müasir sayılan 320 yerlik Xırxatala kənd orta məktəbinin binası tikildi.

Bu nailiyyətlərin qazanılmasında əlbəttə, uzun illər Xırxatala kənd orta məktəbinə rəhbərlik etmiş, respublikada tanınmış qabaqcıl təhsil işçisi, bacarıqlı təşkilatçı mərhum Əhmədiyyə Məmmədovun böyük əməyi vardı. Ə. Məmmədov yüksək təşkilatçılıq və insanlarla işləmək qabiliyyətinə görə sonralar rayonda müxtəlif rəhbər vəzifələrə irəli çəkildi və müvəffəqiyyətlə işlədi.

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının yaranmasının əsas təəsübkeşlərindən biri kimi ilk konfransda bu təşkilata sədr seçildi. Ömrünün sonunadək—14 ildən çox YAP Qəbələ Rayon Təşkilatına sədrlik etdi.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ilə (iyun 1993-cü il) birinci növbədə təhsilin maddi-texniki bazasının dağıdılması prosesi dayandırıldı. Təhsil müəssisələrinin təmiri və tikintilərinə başlandı.

2000-ci illərin əvvəllərindən isə təhsil ocaqlarının tikintisi, təmiri, ən müasir avadanlıqlarla təchizatı respublikamızın tarixində görünməmiş vüsət aldı. Rayonumuz da bu sahədə irəli çıxdı. Son on ildə rayonda 5340 yerlik yeni məktəb binası tikilmiş, məktəblərin əksəriyyəti, o cümlədən Xırxatala kənd tam orta məktəbinin binası da təmir olunmuşdur. Məktəblərin hamısı komputerlə təmin olunmuşdur.

Məktəblərə, təhsilə göstərilən qayğı müəllimlərdə, şagirdlərdə böyük ruh yüksəkliyi yaratmışdır. Bunun nəticəsidir ki, Qəbələ rayonu məktəb məzunlarından ali məktəblərə qəbul olunanların sayına görə artıq neçə illərdir ki, ilk yerlərdə durur.

Xırxatala kənd tam orta məktəbinin kollektivi də son illər rayon məktəbləri arasında öz əvvəlki qabaqcıl yerini tutmaq üçün böyük səy göstərir. Bu gün deyə bilərik ki, məktəb 2012—2013-cü dərs ilinin yekununa görə öz məqsədinə çatmış sayıla bilər. Qeyd olunan dərs ilində məktəbin 11-ci sinfini 30 nəfər bitirmiş, onlardan 13 nəfəri ali, 1 nəfəri orta ixtisas məktəbinə qəbul olunmuşdur.

Ən fərəhli haldır ki, ötən dərs ilində rayonun tam orta məktəblərini bitirənlərin 5 nəfəri qızıl medala layiq görülmüşdür ki, onların 2 nəfəri Xırxatala kənd tam orta məktəbinin məzunlarıdır. Ali məktəblərə qəbul zamanı məktəbin qızıl medala layiq görülən məzunları müəllimlərinin verdikləri qiymətləri layiqincə doğrultmuşlar. Qızıl medala layiq görülmüş Məmmədzadə Zaur Azad oğlu 645 balla, Salamzadə Pərvin İbrahim oğlu 637 balla Bakı Ali Neft Məktəbinə qəbul olunmuşlar.

Məktəbin məzunlarından bir çoxu Qarabağ uğrunda gedən döyüşlərdə mərdliklə vuruşmuş, 3 nəfəri şəhidlik zirvəsinə yüksəlmişdir. Məktəb şəhid Murad Əlibəyovun adını daşıyır.

Məktəbdə təlimin və tərbiyənin səmərəli təşkilində maddi-texniki bazanın rolunu danmaq mümkün olmasa da, sözsüz ki, müəllim əsas faktor olaraq qalır. Xırxatala kənd tam orta məktəbində bacarıqlı müəllim kollektivi formalaşmışdır.

Kollektivə növbəti illərdə də daha böyük müvəffəqiyyətlər arzulayırıq.

**Qüdrət SƏMƏDOV.**